MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025

**UOT 78.072.2**
**ORCID: 0009-0008-9867-2556**
**https://doi.org/10.52094/XVJQ1555**

**Elnara Məcidova Kitabulla qızı**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**dissertant**
**baş müəllim**
**m.elnara@rambler.ru**

# AZƏRBAYCAN FORTEPİANO SƏNƏTİNİN MÜASİR FƏALİYYƏTİ HAQQINDA

**Xülasə.** Bu məqalə fortepiano sənətinin müasir fəaliyyətinin bəzi aspektlərinə həsr edilmişdir. Müasir ifaçılıq kontekstində fortepiano sənətinin klassik ənənələrinin rolu vurğulanır.

Məqalədə Avropa mədəniyyətində baş verən dəyişikliklərin Azərbaycan fortepiano sənətinə inteqrasiyası məsələsi qeyd olunur. Bu baxımdan pianoçuların fəaliyyətinin vacib amili – əsərin təfsirinin aktuallığı ön plana çıxır.

Məqalənin əsas məqsədi – Azərbaycan musiqi mədəniyyətinin müasir kontekstində öz əsərlərinin bəstəkar-ifaçıları olan musiqi hadisəsinin aktuallaşmasının tədqiqindən ibarətdir. Nümunə olaraq əsərlərinin həm bəstəkarı, həm də ifaçısı olan Firəngiz Əlizadə və Elnarə Dadaşovanın yaradıcılığı göstərilir.

Nəticə olaraq Azərbaycan fortepiano mədəniyyətinin müasir fəaliyyəti prosesində klassik ənənələrin qorunub saxlanılması və inkişafının zəruriliyi, bunların müasir prioritetlərlə əlaqəsinin, sintezinin qanunuyğunluğu təsdiqini tapır.

**Açar sözlər:** fortepiano, üslub, təfsir, bəstəkar, yaradıcılıq, ifaçılıq.

Fortepiano sənətinin müasir fəaliyyətində bədii yaradıcılığın istiqamətini tənzimləyən ictimai qavrayışın səviyyəsi böyük rol oynayır.Yaradıcı prosesin iki tərkib hissəsi, bir tərəfdən, fərdi şəxsiyyət, digər tərəfdən, mədəni kontekst bir-biri ilə qarşılıqlı əlaqədədir.

XX əsrin sonu – XXI əsrin əvvəlində dünya qloballaşır. Məlumatlara sərbəst giriş mədəni hadisələrin əhatə dairəsinin genişliyini müəyyənləşdirir. Bizi əhatə edən dünya daha geniş, zəngin, daha dərin olur.

Müasir fortepiano musiqisində pianoçuların ifaçılıq təfsirini daraltmağın nə qədər qanuni olması, musiqi əsərlərinin təfsirini məhdudlaşdırmağın praktiki cəhətdən nə qədər düzgün olması ilə əlaqədar məsələlərlə bağlı pianizmin keyfiyyətcə yeni səviyyəsi öz əksini tapır.

Xüsusilə, bu mənada, Azərbaycan fortepiano mədəniyyətində klassik yanaşmaların xüsusiyyətlərinə baxılması aktuallaşır, prioritetlərdən birini pianoçunun müstəqilliyini tərbiyələndirmək təşkil edir. Beləliklə, müasir reallıqda musiqi mətninin başa düşülməsi çox vacib əhəmiyyət kəsb edir.

Belə bir ambivalentlik mövcuddur. Pianoçuların müasir yeni repertuarından danışarkən, tədqiqatçılar qeyd edirlər ki, gənc pianoçulara, məsələn, P.Hindemitin əsərlərini F.Şopenin və ya R.Şumanın əsərlərini ifa etməkdən daha asandır. Digər tərəfdən, müasir pianizmə həm Azərbaycan, həm də xarici bəstəkarların müasir əsərləri də təsir göstərir.

XX əsrin sonuna aid pianoçular tez-tez müasir bəstəkarların əsərlərinə müraciət edirlər. Müasir bəstəkarların yaradıcılığına müraciət yeni ifaçılıq vəzifələri, yeni pianoçuluq üslubu formalaşdırır.Yaradıcılıq prosesinə yeni bir şəkildə baxılır:”...akademik dəqiqliyə, obyektiv düzgün ifaya nail olmaq arzusu çox vaxt ifa olunan əsərin xeyrinə yox, zərərinə gətirib çıxarır. Bu, formal olaraq qüsursuz, intizamlı ifaçılar yetişdirir, onların ifası isə keçən illərin əbədi gənc əsərlərini öldürür və yeni əsərlərə həyat verilməsinə kömək etmir” [1, s. 43].

Azərbaycan pianoçularını müasir fortepiano mədəniyyətində çox şey cəlb edir. Belə ki, Fərhad Bədəlbəyli hesab edir ki, S.Prokofyevin pianizmi “özündə bizim dövrün emosional impulsunu daşıyır. Prokofyev ritminin təzyiqi və elastikliyi, musiqi obrazlarının ifadəliliyi, instrumental tokkatalığa meylliliyi, nəhayət, özünün təmkinli, lakonik lirikası ilə mənə yaxındır” [2, s. 167].

Yeni üslubun arqumentasiyalarından biri də ondan ibarətdir ki, musiqi müvəqqəti bir sənət kimi səsləndiyi müddətdə mövcuddur.”Not yazısı özü özünə səslənmir, o, bilavasitə qulağa yox, gözə ünvanlanmışdır... Notlar – müəllif fikri və ifaçı arasında vasitəçidir” [3, s. 346].

Azərbaycan bəstəkarlarının yaradıcılığında, o cümlədən, fortepiano əsərlərində təzahür edən humanist tendensiyalar Azərbaycan pianoçularının bədii fərdiliyinin formalaşmasında əsas vektorlardan biridir. Belə ki, dəyişikliklərin dinamikası bəstəkarın üslub xüsusiyyətlərinə, janr müxtəlifliyinə, struktur sahəsində mürəkkəbliyə və s. əsaslanır.

Məqalənin əsas məqsədi – Azərbaycan fortepiano mədəniyyətinin müasir fəaliyyəti prosesində onun klassik ənənələrinin saxlanılması və inkişafının zəruriliyini göstərməkdən ibarətdir. Azərbaycan fortepiano mədəniyyətində klassik ənənələrin və müasir prioritetlərin tarixi əlaqəsi ahəngdar görünüş əldə edir. Bu da qanunauyğundur.

İlk fortepiano əsərlərinin yarandığı zaman Azərbaycan fortepiano mədəniyyətinin spesifik xüsusiyyətləri formalaşmışdır, bu da Azərbaycan bəstəkarlarının fortepiano üçün musiqi əsərlərinin meydana gəlməsinə imkan yaratmışdır. Qara Qarayevin "Çar kəndinin heykəli", Cövdət Hacıyevin Ballada və Sonatası, Azəf Zeynallının fortepiano əsərləri, Fikrət Əmirovun və Elmira Nəzirovanın ərəb mövzuları əsasında fortepiano konserti, Qara Qarayevin prelüdləri kimi məşhur fortepiano əsərlərinin adlarını sadalamaq kifayətdir.

Azərbaycanın müasir milli pianoçuluq mədəniyyəti özündə həm fortepiano ifaçılığının klassik ənənələrini, həm də onun fəaliyyətinin müasir vektorlarını sintez edir. Bununla yanaşı, qeyd edək ki, Azərbaycan fortepiano mədəniyyətinin milli əhəmiyyətli əsasları ifaçılığa impuls verir, belə ki, milli musiqi üslubunun dərin ifadəli imkanlarını özünə sığışdırır.

Tədqiqatçılar fortepiano sənətinin klassik ənənələrinin əhəmiyyətini belə qeyd edirlər: "Müasir Azərbacyan musiqi mədəniyyətinin çiçəklənməsi bu gün onun gələcək inkişafı prosesində varislik prinsipinə və bu problemin həllinə xüsusi diqqətin ayrılması ilə müəyyənləşdirilir. Müxtəlif nəsillərin ifaçılıq məktəblərinin və müxtəlif istiamətlərin nümayəndələri arasında fəal yaradıcı dialoqun zəruriliyi milli fortepiano ifaçılığı sənətinin tam və effektli inkişafının vacib amilidir" [4, s. 138].

Azərbaycan bəstəkarlarının fortepiano yaradıcılığında əks olunan musiqi sənətinin inkişaf tendensiyaları özünü müasir bəstəkar yazısı vasitəsilə bağlı musiqili-ifadə vasitələrinin gücləndirilməsində göstərir. Müasir musiqidə eşitmə qavrayışının reallığının yenidən qurulması əvvəlki musiqi təcrübəsi ilə müqayisədə başqa vektorlar əldə edir.

Klassik ənənələr müasir fortepiano mədəniyyətində yaradıcılıqla təcəssüm olunur. Şübhəsiz, söhbət Azərbaycan fortepiano mədəniyyətinin klassik ənənələrinin yaradıcı şəkildə yenidən dərkindən və istifadəsindən gedir. Müasir Azərbaycan musiqisinin üslub özünəməxsusluğu bədii mühitin həm ümumiləşdirilmiş, həm də rəmzi dərkinin sintezindən ibarətdir. Bununla əlaqədar qeyd edək ki, müasir ifaçılıq sənətinin inkişafı müxtəlifdir. Musiqi klassikasının tədrisi, müasir Azərbaycan fortepiano musiqisinin tədrisi ilə yanaşı müasir Azərbaycan fortepiano musiqisinin böyük bir qatı fəaliyyət göstərir. Bununla yanaşı, pianoçular tez-tez xarici bəstəkarların müasir əsərlərinə müraciət edirlər. Lakin əsas olan – Azərbaycan musiqi mədəniyyətinin müasir kontekstidir, bu kontekstdə öz əsərlərinin bəstəkar-ifaçıları olan musiqi hadisəsi aktuallaşmışdır.

Azərbaycanın fortepiano mədəniyyətinin müasirliyi özünü azad intellektual axtarış cəhdində göstərir. Bu aspektdə müasir fortepiano sənətinin – öz əsərlərinin azərbaycanlı bəstəkar-ifaçıları kimi hadisəsini vurğulayaq. Müasir pianoçular "öz dövrünün, öz zamanının xarakterini və nəbzini həssaslıqla tuturlar və bunu bacardıqları qədər bilavasitə ötürürlər" [1, s. 49]. Bu, xüsusilə, bəstəkar-pianoçulara aiddir.

Bəstəkarlar özündə iki professional şəkildə ifadə olunmuş bəstəkar və ifaçı aspektini birləşdirirlər, bəstəkarlıq və ifaçılıq ustalığının sintezi həyata keçirilir. Bəstəkar-pianoçuların musiqi fəaliyyətinin əsasında məşhur əsərlərin təfsiri deyil, məhz öz səs dünyasını göstərmək cəhdi durur. Bundan əlavə, onların anlayışına görə, ən ideal ifa da bəstəkarın daxili aləmini maksimum çatdırmır.

Yaxşı məlumdur ki, fortepiano əsərləri – bəstəkarın və ifaçının birgə yaradıcılığıdır. Bu cəhətin minimuma endirilməsi ifaçı və bəstəkarın birləşdiyi bəstəkarlıq təcrübəsinin yaranma səbəblərindən biridir.

Azərbaycan müasir fortepiano mədəniyyətində bədii kəşflərin dəyərinin axtarışı inkişafın əsas vektorudur. Bu aspektdə müasir dövrün görkəmli bəstəkarlarından biri olan Firəngiz Əlizadənin fortepiano yaradıcılığına müraciət edək.

İfaçılığın paradoksları haqqında yazan Q. Koqanın tezislərini yada salaq. Bu halda tezisdə deyilən "bəstəkar musiqini yaradır, ifaçı isə onu yalnız təfsir edir – öz təsdiqini tapmır, belə ki, bəstəkarın özü elə öz əsərinin ifaçısıdır" [3, s. 347].

Müasir musiqidə ifadə vasitələrinin yenilənməsi, əlbəttə ki, bəstəkarın ifaçılıq xüsusiyyətlərində əks olunur. F.Əlizadənin əsərlərində müasir atmosfer hökm sürür. Onun fortepiano yaradıcılığını yenilənmə, yorulmaz axtarış fərqləndirir. Məhz buna görə də bəstəkarın fortepiano əsərlərinin bədii dünyasının müxtəlifliyi əsasdır. Fortepiano mədəniyyətinin klassik ənənələrinə əsaslanaraq o, öz pianoçuluq üslubunu yaradır. F.Əlizadənin yaradıcılığını mühüm keyfiyyət – müasir dünyanın dinamikasının dəqiq ötürülməsi fərqləndirir. Fortepiano üslubu sərbəstliyi, azadlığı ilə seçilir. Fortepiano leksikasının təravəti və yeniliyi F.Əlizadənin əsərlərində mətnin parlaq semantikası ilə açılır.

Məhz Azərbaycan fortepiano mədəniyyətinin klassik ənənələrinin təsiri F.Əlizadənin əsərlərinə dramaturji nisbətlərin dəqiqliyini, musiqi mətninin detallarının hərtərəfli işlənilməsini, onun dinamik irəliləməsinin energetikasını gətirir. Bəstəkar və ifaçı ustalığı F.Əlizadənin fortepiano yaradıcılığında birləşir.

Qeyd edək ki, Azərbaycan fortepiano mədəniyyətində yaranmış klassik ənənələr heç də qapalı xarakter daşımır. Onların əsas parametrləri inkişafa və təkmilləşməyə açıqdır.

Bu, F.Əlizadənin fortepiano yaradıcılığının üslub, obraz, dramaturji xüsusiyyətlərinin müasirliyinin Azərbaycan fortepiano məktəbinin ənənələrilə sıx bağlı olmağa sövq edir. F.Əlizadənin fortepiano əsərlərində müasir dövrün nəbzi və ritmi vurur, bu günün obrazları yaranır, qəti, fəal hərəkətin enerjisi, fortepiano palitrasının gözlənilməz müqayisəsi, cəsarətli semantik keçidlər verilir, dinamik quruluşların fəallığı diqqəti cəlb edir.

Bir-birinə təzadlı strukturların müqayisəsinin sürətini, onların kəskinliyini, qısalığını, eyni zamanda, musiqi mətninin tərkib hisslərinin qabarıqlığını, ifadəliliyini qeyd edək. Musiqi mətninin ritmik tərkib hissəsinin tamlığı müxtəlif ifadə sahələrini yaxınlaşdıraraq, əsərin bütövlüyünü yaradır. F.Əlizadənin fortepiano əsərlərində keçidli dramaturji ideya parlaq şəkildə özünü göstərir.

Qara Qarayevin tələbəsi, öz əsərlərinin bəstəkar-ifaçısı olan digər görkəmli bəstəkar Elnarə Dadaşova müasirliyin keçmişlə əlaqəsini dərindən hiss edir, bu da onun fortepiano yaradıcılığında öz əksini tapır. Belə ki, hər bir yeni fortepiano əsərinə qoyulan müasir konsepsiya onun üslubunun parlaq

milli mənbələrilə əlaqələndirilir. Elnarə Dadaşovanın yaradıcılığında bayramın müasir təfsiri yeni səviyyəyə qaldırılır. Bəstəkarın "Sayalı" baletini dinləmək kifayətdir.

Mühüm ifadə vasitəsi olan milli əhəmiyyət daşıyan intonasiyalılıq mətnə sadəcə daxil edilmir. Məhz variantlı formaların, tipoloji modellərin çoxölçülülüyü fortepiano fakturası səviyyələrində özünü aşkarlayır.

Təzadlar diapazonunun genişləndirilməsi, obrazlı komponentlərin qütblülüyü, üslub normalarının sərhədi – bütün bunlar onun yaradıcılığına parlaq fərdi xarakter verir. Qeyd edək ki, belə bir ifaçılıq cəsarəti XXI əsr mədəniyyəti kontekstində fortepiano sənətinin fəaliyyətinin müasir şəraitində formalaşmağa başlayır.

Obrazlı mənanın birliyinə və bütövlüyünə nail olmaq üçün musiqi materialının yerləşdirilməsinin məqsədəuyğunluğunu bir daha qeyd edək, burada ilkin materialın prioritet istiqamətləndirici enerjisi onun müxtəlif modifikasiyaları vasitəsilə reallaşır.

Müasir fortepiano mədəniyyəti ifaçının üslubundan, fəaliyyətindən, konsert spesifikasından asılı olmayaraq fortepiano sənəti klassikasının obyektiv mövcud olan ənənəvi qatını və təkrarolunmaz fərdiliklərin sintezini təmsil edir, bunlar fortepiano mədəniyyətinin yenilənməsini, inkişafını təmin edir və onun inkişafının gələcək yollarını müəyyənləşdirir.

Müasir dünyada musiqi reallığının müxtəlifliyi və dinamikası Azərbaycan fortepiano mədəniyyətində yeni hadisələrin yaranmasını tələb edir. Yeni üslub qanunauyğunluqları, hər bir halda, milli musiqi üslubunun ənənələrinə əsaslanır. Bu aspektdə müasir fortepiano ifaçılığı onun klassik əsaslarına istinad edir.

## Ədəbiyyat siyahısı

1. Мильштейн Я.И. Вопросы теории и истории исполнительства. М.Советский композитор. 1983.

2. Видные деятели фортепианной культуры Азербайджана. Баку, Ищыг, 1988.

3. Коган Г. Парадоксы об исполнительстве. О музыке. Проблемы анализа. М.:Советский композитор, 1974., с.344-366.

4. Магеррамова А.А, Принцип преемственности в азербайджанском фортепианно-исполнительском искусстве (на примере развития

зарубежной и национальной фортепианной культуры). Диссертация на соискание ученой степени кандидата искусствоведения. Баку, 2007.

**Эльнара Меджидова Китабулла кызы**

**О современном функционировании азербайджанского фортепианного искусства**

**Резюме:** Данная статья посвящена некоторым аспектам современного функционирования фортепианного искусства. Подчеркивается роль классических традиций фортепианного искусства в современном исполнительском контексте.

Отмечена проблема интеграции изменений, происходящих в европейской культуре, в азербайджанское фортепианное искусство. В этой связи на первый план выходит важный фактор деятельности пианистов – актуальность интерпретации произведения.

Основная цель статьи – исследование актуальности музыкального феномена композиторов-исполнителей собственных произведений в современном контексте азербайджанской музыкальной культуры. В качестве примера показано творчество Фирангиз Ализаде и Эльнары Дадашевой, которые являются одновременно и композиторами, и исполнителями своих произведений.

В результате подтверждается необходимость сохранения и развития классических традиций в процессе современной активности азербайджанской фортепианной культуры, закономерность их связи с современными приоритетами и их синтез.

**Ключевые слова:** фортепиано, стиль, интерпретация, композитор, творчество, исполнение.

**Elnara Majidova Kitabulla gizi**

**About the Contemporary Functioning of Azerbaijani Piano Art**

**Summary:** This article is devoted to some aspects of the modern activity of the piano art. The role of the classical traditions of the piano art in the context of modern performance is emphasized.

The problem of integration of changes occurring in European culture in Azerbaijani piano art is noted. In this connection, an important factor in the

activity of pianists comes to the fore – the relevance of the interpretation of the work.

The main purpose of the article is to study the relevance of the musical phenomenon of composers-performers of their own works in the modern context of Azerbaijani musical culture. As an example, the work of Firangiz Alizade and Elnara Dadashova, who are both composers and performers of their works, is shown.

As a result, the necessity of preservation and development of classical traditions in the process of modern activity of Azerbaijani piano culture, the regularity of their connection with modern priorities and their synthesis is confirmed.

**Key words**: piano, style, interpretation, composer, creativity, performance

Məqalənin redaksiyaya daxilolma tarixi: 04.11.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 13.11.2025
Məqalənin çapa qəbul olunma tarixi: 20.11.2025